# Hilas və Filonus arasında üç dialoq

written by CorcBerkli

*Corc Berkli (1685-1753) məşhur britaniyalı filosofdur. Onun Hilas və Filonus arasında üç dialoq (Three Dialogues between Hylas and Philonous) əsəri qabaqcıl universitetlərin bir çoxunda fəlsəfə ixtisası üzrə təhsil alan ilk kurs tələbələrinə oxunması tövsiyə olunan əsərlərdən biridir. Əsər dünyanın onlarca müxtəlif dillərinə tərcümə edilmişdir.*

***Birinci dialoqun üçüncü hissəsi (mətnin sonunda dialoqun əvvəlki hissələrinə və Ön sözə keçid yerləşdirilmişdir)***

**Filonus:** Demək, siz hələ də o fikirdəsiniz ki, yertutum və formalar düşünməyən xarici substansiyaların içindədir?

**Hilas:** Bəli.

**Filonus:** Bəs əgər ikinci dərəcəli keyfiyyətlərə qarşı qoyulmuş eyni arqumentlər birinci dərəcəli keyfiyyətlərə qarşı da keçərlidirsə, onda necə?

**Hilas:** Onda mən düşünməli olacaqdım ki, onlar da yalnız zehində mövcuddur.

**Filonus:** Siz düşünürsünüz ki, duyğularla qavradığınız forma və uzunluq xarici obyektlərdə və ya maddi substansiyada mövcuddur?

**Hilas:** Bəli.

**Filonus:** Bütün digər heyvanların gördükləri və hiss etdikləri forma və yertutum haqqında eynisini düşünməyə eyni dərəcədə tutarlı əsaslar varmı?

**Hilas:** Şübhəsiz, bəli, əgər onlar ümumiyyətlə düşünə bilsəydilər.

**Filonus:** Söyləyin mənə, Hilas. Düşünürsünüz ki, hisslər özünüqoruma və rifah üçün bütün heyvanlara, yoxsa bu məqsədlə yalnız insanlara verilib?

**Hilas:** Şübhə etmirəm ki, bütün digər heyvanlar onları eyni cür istifadə edir.

**Filonus:** Əgər belədirsə, onların hissiyyatları öz bədən üzvlərini və onlara zərər verməyə qadir olan nəsnələri qavramağa imkan verməli deyilmi?

**Hilas:** Təbii ki.

**Filonus:** Bu səbəbdən, güman edilməlidir ki, gənə öz ayaqlarını və hətta ondan daha kiçik ölçüdə olan digər şeyləri əhəmiyyətli ölçülü cisimlər kimi görür, baxmayaraq ki, siz onları çətin ki fərqləndirirsiniz, ən yaxşı halda yalnız gözəçarpan çoxsaylı nöqtələr kimi görürsünüz.

**Hilas:** Bunu inkar edə bilmərəm.

**Filonus:** Və onlar gənədən daha kiçik həşəratlara hətta daha böyük görünəcəklər.

**Hilas:** Elədir.

**Filonus:** Demək, çox kiçik olması səbəbindən, sizin güclə fərqləndirdiyiniz şey olduqca kiçik heyvanlara nəhəng dağ kimi görünəcək?

**Hilas:** Bütün bunlarla razılaşıram.

**Filonus:** Bir şey eyni zamanda müxtəlif ölçüyə malik ola bilərmi?

**Hilas:** Bu cür düşünmək absurd olardı.

**Filonus:** Ancaq dediklərinizdən belə çıxır ki, gənənin ayağının həqiqi ölçüsü həm sizin onda gördüyünüz, həm gənənin özündə gördüyü, həm də daha kiçik heyvanlar tərəfindən görünən bütün müxtəlif ölçülərdir. Beləcə, sizin öz prinsipləriniz absurda

gətirib çıxarır.

**Hilas:** Görünür, bu məsələdə bir az çətinlik var.

**Filonus:** Siz razılaşmadınız ki, obyektdə olan heç bir gerçək əlamət obyekt özü dəyişmədən dəyişə bilməz?

**Hilas:** Razılaşdım.

**Filonus:** Ancaq biz obyektə yaxınlaşan və ya uzaqlaşan kimi onun görünən yertutumu dəyişir, bir məsafədə digər məsafədən göründüyündən on və ya yüz dəfə böyük görünür. Buradan həm də belə çıxmır ki, o əslində obyektin içində deyil?

**Hilas:** Etiraf edirəm ki, nə düşünməli olduğumu bilmirəm.

**Filonus:** Bu xüsusiyyət barəsində digər şeylər barəsindəki kimi sərbəst düşünməyə cəsarət edərsinizsə, tezliklə fikirlərinizi toparlaya biləcəksiniz. Suyun bir əl üçün soyuq, digər əl üçün isti gəlməsindən nə istinin, nə də soyuğun suda olmamasını çıxartmaq yaxşı arqument kimi qəbul edilməmişdimi?

**Hilas:** Qəbul edilmişdi.

**Filonus:** Obyektin bir gözə kiçik, hamar və yumru görünərkən, digər gözə böyük, nahamar və bucaqlı görünməsi şərtindən nə ölçü, nə də formanın onun özündə mövcud olmaması nəticəsinə gəlmək eyni cür əsaslı deyilmi?

**Hilas:** Eynidir. Ancaq sonuncu nə zamansa baş verirmi?

**Filonus:** Siz bunu biri çılpaq gözlə, digəri ilə isə mikroskopla baxmaqla istənilən zaman təcrübə edə bilərsiniz.

**Hilas:** Bilmirəm bunu necə müdafiə edim, yertutum məsələsində güzəştə getməkdə qərarsızam, çünki belə bir güzəştdən çıxan çox qəribə nəticələr görürəm.

**Filonus:** “Qəribə” deyirsiz? Ümid edirəm, artıq razılaşdığınız məsələlərdən sonra sadəcə *qəribə* olduğu üçün nədənsə çəkilməyəcəksiniz. Ancaq digər tərəfdən, bütün digər hissi

keyfiyyətləri əhatə edən ümumi düşünmələr yertutuma da aid olmasaydı, bu çox qəribə görünməzdimi? Əgər siz razılaşırsınızsa ki, heç bir ideya və ya ideyaya bənzər bir şey qavramayan substansiyada mövcud ola bilməz, onda şübhəsiz belə çıxır ki, yertutumunu qavraya və ya təsəvvür edə bildiyimiz heç bir forma və üsulu əslində materiyanın özündə ola bilməz. Maddi bir substansiyanın yertutuma münasibətdə əvvəl və ondan fərqli olaraq onun *substratı* kimi dərk edilməsində mövcud olan xüsusi çətinlikdən hələ bəhs etmirəm. Hissi keyfiyyət ya forma, ya səs, ya rəng, ya da siz nə istəyirsiniz olursa-olsun, bunlardan hər hansı birinin qavramayan bir şeydə mövcud olması mümkünsüz görünür.

**Hilas:** Bu məsələdə sadəcə indilik güzəştə gedirəm. Ancaq sonradan ortaya çıxsa ki, yanlış addımla bu fikrə gəlmişəm, fikrimi geri götürmək haqqımı saxlayıram.

**Filonus:** Bu, sizin inkar edilə bilməz bir hüququnuzdur. Forma və yertutumluluq ilə məsələni bitirərək, indi *hərəkətə* keçək. Hər hansı bir xarici cisimdəki gerçək hərəkət eyni zamanda həm çox sürətli və həm də çox ləng ola bilərmi?

**Hilas:** Ola bilməz.

**Filonus:** Cismin hərəkət etdiyi sürət, onun hansısa verilmiş məsafəni qət etdiyi zamana tərs mütənasib deyilmi? Belə ki, saatda bir mil qət edən cisim bir mili üç saata qət edəcəyi haldan üç dəfə sürətli hərəkət edir.

**Hilas**: Sizinlə razıyam.

**Filonus**: Bəs zaman bizim zehnimizdəki ideyaların ardıcıllığı ilə ölçülmürmü?

**Hilas**: Ölçülür.

**Filonus**: Bəs mümkün deyilmi ki, sizin zehninizdəki ideyalar bir-birini mənim və ya fərqli bir növ məxluqun zehnindəkilərdən iki dəfə sürətli təqib etsin?

**Hilas**: Bunu qəbul edirəm.

**Filonus**: Nəticə etibarilə, eyni cismin verilmiş yolu qət etməsi başqa kimsəyə sizə göründüyündən iki dəfə az zamanda görünə bilər. Və eyni yanaşma başqa proporsiyaya münasibətdə də özünü doğruldacaq: yəni, (madam ki, qavranılmış hərəkətlərin hər ikisi həqiqətən obyektdədir) sizin mühakimənizə görə, bir cisim eyni zamanda həqiqətən həm çox sürətli, həm də çox ləng hərəkət edə bilər. Bu gündəlik düşüncəyə və ya sizin bir az əvvəl qəbul etdiyinizə necə uyğundur?

**Hilas:** Buna deməyə sözüm yoxdur.

**Filonus:** *Bərkliy*ə gəlincə, bu sözü dedikdə siz ya hər hansı bir hissi keyfiyyəti nəzərdə tutmursunuz –belə olan halda bu bizim araşdırmamız üçün əhəmiyyətsizdir; ya da əgər hissi keyfiyyəti nəzərdə tutursunuzsa, onda bu, ya möhkəmlik, ya da müqavimət olmalıdır. Ancaq bunların hər biri açıq-aşkar bizim hisslərimizə nisbətdədir: aydındır ki, hansısa heyvan üçün sərt görünən şey daha böyük qüvvəyə və güclü əzalara malik digər birinə yumşaq görünə bilər.Və eyni dərəcədə aydındır ki, hiss etdiyim müqavimət cisimdə deyil.

**Hilas:** Etiraf edirəm ki, sizin hamınızın birbaşa qavradığınız müqavimət hissiyyatı cisimdə deyil, ancaq hissiyyatın səbəbi cisimdədir.

**Filonus:** Fəqət hissiyyatlarımızın səbəbləri birbaşa qavranılan şeylər deyil və bu səbəbdən də hissi deyillər. Bu məsələnin artıq bitirilmiş olduğunu düşünürdüm.

**Hilas:** Etiraf edirəm ki, elədir. Ancaq bir az çaşqın görünsəm, məni bağışlayın; əvvəlki anlayışlarımdan əl çəkməkdə çətinlik çəkirəm.

**Filonus:** Sizə kömək olsun deyə, bunu nəzərdən keçirin: *yertutum*un zehindən kənarda mövcud olmaması qəbul edildisə, hərəkət, bərklik, cazibə barəsində də eyni şey qəbul

edilməlidir, çünki onların hamısı yertutumu açıq-aşkar şərt qılır. Bu səbəbdən, onların hər birini ayrı-ayrılıqda araşdırmaq gərəksizdir; yertutumu inkar etməklə, siz onların hamısının hər hansı gerçək mövcudluğa malik olmasını inkar etdiniz.

**Hilas:** Filonus, əgər bu, doğrudursa, mənə maraqlıdır ki, nə üçün ikinci dərəcəli keyfiyyətlərin gerçək varlığını inkar edən filosoflar hələ də onu birinci dərəcəli keyfiyyətlərə aid edirlər. Əgər onlar arasında fərqlilik yoxdursa, onda bu, necə izah oluna bilər?

**Filonus:** Filosofların hər fikrinə izah vermək mənim işim deyil. Ancaq buna aid edilə biləcək başqa səbəblərlə yanaşı mümkün görünür ki, ağrı və həzz daha çox əvvəlki ilə əlaqəlidir, nəinki sonuncu ilə.  İsti və soyuq, dadlar və qoxular bizdə yertutum, forma, hərəkət ideyalarından daha canlı xoşagələn və ya xoşagəlməyən hisslər yarada bilirlər. Və ağrı və həzzin qavramayan substansiyalarda mövcudluğunu demək çox aşkar absurd olduğuna görə insanlar ikinci keyfiyyətlərin xarici varlıqlardakı mövcudluqlarına inamdan daha asanlıqla dönürlər, nəinki birinci keyfiyyətlərin. Əgər siz orta istilik və kəskin istilik arasında etdiyiniz fərqləndirməni xatırlasanız – ki, birinin həqiqi varlığını hesaba qatmaqla digərini inkar etdiniz – onda buna inanacaqsınız. Ancaq ümumilikdə həmin fərqləndirmə üçün heç bir rasional səbəb yoxdur; çünki neytral duyğu elə ağrı və həzz olan qədər *duyğu*dur; və nəticə etibarilə, heç birinin qavramayan obyektdə mövcudluğu güman edilməməlidir.

**Hilas:** İndicə ağlıma gəldi ki, Filonus, haradansa mütləq və hissi yertutum arasında fərqləndirmə barəsində eşitmişəm. Baxmayaraq qəbul edilə bilər ki, *böyük* və *kiçik*– hansı ki, sadəcə başqa yertutuma malik şeylərin bizim öz bədənimizin hissələrinə olan münasibətindən ibarətdir– əslində substansiyaların özlərində mövcud deyillər; hərçənd, heç nə bizi *mütləq yertutum* ilə bağlı eyni şeyi deməyə məcbur etmir.Oxşar şey hərəkətə də aiddir: *sürətli və ləng* tamamilə

bizim öz zehnimizdəki ideyaların ardıcıllığı ilə nisbətdədir. Ancaq hərəkətin bu xüsusi hallarının zehindən kənarda mövcud olmamasına görə heç də elə çıxmır ki, eyni şey onlardan mücərrədləşmiş olan mütləq hərəkət üçün də həqiqidir.

**Filonus:** Deyin görək, hərəkəti və ya yertutumun bir hissəsini digərindən nə fərqləndirir? Bu, sürət və ya ləngliyin müəyyən dərəcəsi, müəyyən ölçü və ya forma kimi hissi bir şey deyilmi?

**Hilas:** Mən elə düşünürəm.

**Filonus:** Deməк, bütün hissi xüsusiyyətlərdən məhrum edilmiş olaraq, bu keyfiyyətlər, sxolastik dildə deyildiyi kimi, bütünlüklə spesifik və nömrəvi baxımdan fərqsiz olurlar.

**Hilas:** Doğrudur.

**Filonus:** Demək, onlar ümumilikdə yertutum və ümumilikdə hərəkətdir*.*

**Hilas:** Olsun.

**Filonus:** Ancaq hər kəs tərəfindən qəbul olunmuş bir prinsipdir ki, *mövcud olan şeylər təkcələrdir.* Onda ümumilikdə hərəkət və ya ümumilikdə yertutum hər hansı maddi substansiyada necə mövcud ola bilər?

**Hilas:** Bu çətinliyi həll etmək üçün zamana ehtiyacım olacaq.

**Filonus:** Ancaq məncə məsələ tez həll edilə bilər. Şübhəsiz, bu və ya digər ideyanı formalaşdırmağı bacardığınızı söyləyə bilərsiniz. İndi isə hazırkı mübahisəmizin bu şəkildə həll edilməsini istəyirəm: əgər siz düşüncələrinizdə hərəkət və ya yertutumun sürət və ləng, böyük və kiçik, yuvarlaq və dördbucaq və bunlara bənzər bütün digər yalnız zehində mövcud olması qəbul edilən, hissi modifikasiyardan məhrum, aydın abstrakt ideyasını yarada bilərsinizsə, bu halda mən müdafiə etdiyiniz məsələdə güzəştə gedəcəm. Ancaq yarada bilməzsinizsə, bundan sonra barəsində anlayışınız olmayan bir şey üzərində israr etmək sizin üçün ağlabatmayan olardı.

**Hilas:** Açıq etiraf edim ki, edə bilmərəm.

**Filonus:** Ən azından yertutum və hərəkət ideyalarını bütün *ikinci dərəcəli* adlandırılan ideyalardan fərqləndirə bilirsiniz?

**Hilas:** Nə?! Yertutum və hərəkəti özü-özlüyündə bütün digər hissi keyfiyyətlərdən mücərrəd olunmuş şəkildə nəzərdən keçirmək asan məsələ deyilmi? Deyin mənə, riyaziyyatçılar onları necə nəzərdən keçirirlər?

**Filonus:** Etiraf edirəm, Hilas, bu keyfiyyətlər barəsində digərlərindən bəhs etmədən ümumi müddəalar və mühakimələr formalaşdırmaq və bu mənada onları abstrakt nəzərdən keçirmək çətin deyil. Ancaq "hərəkət" *sözünü* özlüyündə tələffüz edə bilməyimdən necə çıxa bilər ki, zehində onun bədəndən xaric ideyasını yarada bilirəm? Yaxud *böyük* və ya *kiçik*, yaxud da heç bir digər hissi keyfiyyətdən söz etmədən yertutum və formalar haqqında teoremlər yaradıla bilinməsinə görə, mümkündürmü ki, belə bir xüsusi ölçü və ya formasız, yaxud hər hansı hissi keyfiyyətsiz abstrakt yertutum ideyası aydın olaraq formalaşdırılsın və zehin tərəfindən dərk edilsin? Riyaziyyatçılar kəmiyyəti başqa hissi keyfiyyətləri nəzərə almadan, onların sübutları üçün tamamilə əhəmiyyətsiz olaraq nəzərdən keçirirlər. Ancaq məncə siz aşkarlayacaqsınız ki, əgər onlar sözləri bir kənara qoyub çılpaq ideyaları düşünürlərsə də, bu ideyalar yertutumun saf mücərrədləşmiş ideyaları deyil.

**Hilas:** Bəs *saf intellekt*ə nə deyirsiniz? Mücərrədləşmiş ideyalar bu bacarıq tərəfindən formalaşdırıla bilməzmi?

**Filonus:** Heç cür mücərrəd ideyalar yarada bilməməyimə görə aydındır ki, onları *saf intellektin* (bu sözlə hansı bacarığı nəzərdə tutmağınızdan asılı olmayaraq) köməyi ilə də yarada bilmərəm. Bundan əlavə, saf intellektin təbiəti və onun *fəzilət*, *səbəb*, *Allah* və digər bu kimi ruhi nəsnələri haqqında sual etmədən demək olar açıq həqiqət kimi görünən budur ki, hissi şeylər yalnız duyğularla qavranıla və ya

təsəvvürlə əks etdirilə bilər. Deməli, forma və yertutum, başlanğıcdan duyğularla qavranılan olaraq saf intellektə aid deyil. Ancaq buna daha da əmin olmağınız üçün, cəhd edin görüm bütün ölçü xüsusiyyətlərindən, hətta digər hissi keyfiyyətlərdən mücərrədləşdirilmiş hansısa forma ideyasını yarada bilirsinizmi?

**Hilas:** Qoyun, bir az düşünüm – məncə, yarada bilmirəm.

**Filonus:** Bəs anlayışında ziddiyyət olan bir şeyin gerçək olaraq təbiətdə mövcudluğunu mümkün hesab edə bilirsinizmi?

**Hilas:** Heç bir halda.

**Filonus:** Demək, hətta zehin yertutum və hərəkət ideyalarını bütün başqa hissi keyfiyyətlərdən ayıra bilmədiyinə görə, buradan çıxmırmı ki, harada ki biri mövcuddur, oxşar şəkildə o biri də zəruri olaraq mövcuddur?

**Hilas:** Elə çıxmalıdır.

**Filonus:** Beləliklə, sizin ikinci dərəcəli keyfiyyətlər əleyhinə həlledici olmasına razılaşdığınız eyni arqumentlər əlavəyə ehtiyacı olmadan birinci dərəcəli keyfiyyətlərə qarşı da keçərlidir. Bundan başqa, əgər siz öz hisslərinizə güvənirsinizsə, aydın deyilmi ki bütün hissi keyfiyyətlər həm mövcuddurlar və ya bir yerdədirlər kimi görsənirlər? Hissləriniz hərəkət və ya formanı bütün digər görünən və hiss edilən keyfiyyətlərdən sərf-nəzər olunmuş şəkildə heç təqdim edir?

**Hilas:** Bu barədə danışmağınıza daha ehtiyac yoxdur. Əgər bura qədər bizim müzakirəmizdə hər hansı bir gizli xəta və ya gözdən qaçan nəsə olmayıbsa, məmnuniyyətlə etiraf edirəm ki, bütün hissi keyfiyyətlərin zehindən kənarda mövcudluğu eyni şəkildə inkar edilməlidir. Ancaq qorxuram ki, əvvəlki güzəştlərimdə çox liberal olmuşam, yaxud da bəzi səhvləri gözdən qaçırmışam. Qısası, düşünməyə vaxt ayırmamışam.

**Filonus:** Bu məsələ ilə bağlı deyim ki, Hilas, bizim

axtarışlarımızın gedişini gözdən keçirməkdə istədiyiniz qədər zaman götürə bilərsiniz. Etdiyiniz istənilən xətanı düzəltməkdə və ya əvvəlki fikrinizin xeyrinə nəzərdən qaçırdığınız nəyisə təklif etməkdə azadsınız.

**Hilas:** Məncə, nəzərdən qaçırdığım böyük bir məsələ budur: *obyekt*i *duyğu*dan yetərincə fərqləndirmədim. Baxmayaraq ki, sonuncu zehindən kənarda mövcud ola bilməz, buradan belə çıxmır ki, əvvəlki də elədir.

**Filonus:** Hansı obyekti nəzərdə tutursunuz? Duyğuların obyektini?

**Hilas:** Eynilə.

**Filonus:** Onda o, birbaşa qavranılır?

**Hilas:** Düzdür.

**Filonus:** Birbaşa qavranılanla duyğu arasındakı fərqi mənə başa salın.

**Hilas:** Duyğunu qavrayan zehin aktı kimi qəbul edirəm; ondan başqa, qavranılan nəsə bir şey var və mən bunu *obyekt* adlandırıram. Məsələn, o lalənin üzərində qırmızı və sarı var. Ancaq həmin rənglərin qavranılan aktı yalnız məndədir, lalədə deyil.

**Filonus:** Hansı lalədən danışırsınız? Gördüyünüz o laləni deyirsiniz?

**Hilas:** Eynilə.

**Filonus:** Bəs rəng, forma və yertutumundan başqa nə görürsünüz?

**Hilas:** Heç nə.

**Filonus:** Onda demək istədiyiniz budur ki, qırmızı və sarı yertutumu ilə həmmövcuddur, elə deyilmi?

**Hilas:** Bu, hamısı deyil. Deyərdim ki, onlar zehindən kənarda,

bəzi düşünməyən substansiyalarda mövcudluğa malikdirlər.

**Filonus:** Rənglərin həqiqətən gördüyüm lalədə olması aşkardır. Həmçinin, inkar edilə bilməz ki, həmin lalə sizin və ya mənim zehnimdən asılı olmayaraq mövcud ola bilər; ancaq duyğuların birbaşa obyekti – yəni, hər hansı bir ideya və ya ideyaların kombinasiyası – düşünməyən substansiyada mövcud olmalıdır və ya bütün zehinlərin xaricindədir, fikri özlüyündə açıq ziddiyyətdir. Bundan əlavə, mən təsəvvür edə bilmirəm ki, bu, indicə dediyinizdən – yəni, qırmızı və sarı gördüyünüz lalədədir fikrindən – necə çıxır, çünki siz iddia etmirsiniz ki, həmin düşünməyən substansiyanı görürsünüz.

**Hilas:** Mövzunu dəyişməyi ustalıqla bacarırsınız, Filonus.

**Filonus:** Görürəm, bu istiqamətdə davam etməyimi istəmirsiniz. Gəlin onda sizin *duyğu* və *obyekt* arasındakı fərqləndirmənizə qayıdaq. Əgər sizi düzgün başa düşdümsə, hər bir qavrayışda iki şeyi fərqləndirirsiniz – biri zehnin aktı, digəri isə yox.

**Hilas:** Doğrudur.

**Filonus:** Və bu akt heç bir düşünməyən substansiyada mövcud və ya ona aid ola bilməz; bəs qavrayışın ehtiva etdiyi başqa bir şey necə, mövcud ola bilər?

**Hilas:** Mən elə belə düşünürəm.

**Filonus:** Demək, əgər heç bir zehin aktı olmadan qavrayış olsaydı, həmin qavrayışın düşünməyən substansiyada mövcudluğu mümkün olardımı?

**Hilas:** Bunu qəbul edirəm. Ancaq bu cür qavrayışın olması mümkün deyil.

**Filonus:** Zehin nə zaman aktiv sayılır?

**Hilas:** Nəyisə yaradanda, sona yetirəndə və ya dəyişəndə.

**Filonus:** Zehin nəyisə iradə aktı olmadan yarada, sona yetirə və ya dəyişə bilər?

**Hilas:** Bilməz.

**Filonus:** Buna görə də, zehin qavrayışlarında iradənin ehtiva olunduğu qədər aktiv hesab edilməlidir.

**Hilas:** Elədir.

**Filonus:** Mən bu gülü qoparan zaman aktivəm, çünki bunu iradəmin təsiri nəticəsində yaranan əl hərəkəti ilə edirəm; eyni şəkildə əlimi burnuma aparan zaman da. Bəs bunlardan hansısa biri qoxulamadırmı?

**Hilas:** Xeyr.

**Filonus:** Burnumla havanı içimə çəkdikdə də hərəkət edirəm, çünki nəfəs almağım başqa şey deyil, iradəmin təsiridir. Ancaq bu *qoxulama* da adlana bilməz,çünki belə olsaydı, hər dəfə o şəkildə nəfəs aldıqda nəyisə qoxulayası olardım.

**Hilas:** Doğrudur.

**Filonus:** Onda qoxulama nədirsə, bunların nəticəsidir.

**Hilas:** Elədir.

**Filonus:** Ancaq hesab etmirəm ki, iradəm bundan sonra da iştirak edir. Belə bir xüsusi və ya istənilən hər hansı qoxunu qavramaqda daha nə baş verirsə, mənim iradəmdən asılı deyil və mən bunda tamamilə passivəm. Sizin vəziyyətinizdə bu fərqlidir, Hilas?

**Hilas:** Xeyr, elə eynidir.

**Filonus:** İndi görməyə nəzər salaq: gözlərinizi açmaq və ya bağlamaq, bu və ya o biri tərəfə döndərmək sizin iradənizdə deyil?

**Hilas:** Şübhəsiz.

**Filonus:** Bəs bu gülə baxanda başqa rəngi deyil, *ağı* qavramağınız oxşar şəkildə sizin iradənizdən asılıdırmı? Və ya

açıq gözlə səmanın, bax, o biri tərəfinə baxsanız, Günəşi görməkdən qaçına bilərsiniz? Başqa sözlə, işıq və ya qaranlıq sizin iradənizin təsiridir?

**Hilas:** Xeyr, əlbəttə.

**Filonus:** Onda bu baxımdan siz tamamilə passivsiniz.

**Hilas:** Bəli.

**Filonus:** İndi isə mənə deyin, *görmə* işıq və rəngləri qavramaqdan, yoxsa gözləri açmaq və çevirməkdən ibarətdir?

**Hilas:** Əvvəlkindən, əlbəttə.

**Filonus:** Demək, məhz işıq və rənglərin qavrayışında tamamilə *passiv* olduğunuza görə, haqqında hər duyğunun bir tərkib hissəsi kimi bəhs etdiyiniz fəaliyyətdən nə olur? Və sizin öz güzəştlərinizdən belə çıxmırmı ki, işıq və rənglərin qavrayışı özündə heç bir fəaliyyət ehtiva etmədən qavramayan substansiyada mövcud ola bilər? Bəs bu, açıq-aşkar ziddiyyət deyilmi?

**Hilas:** Bilmirəm bu barədə nə düşünüm.

**Filonus:** Üstəlik siz hər bir qavrayışda *aktiv* və *passiv* olanı fərqləndirdiyinizə görə bunu ağrı qavrayışında da etməlisiniz. Ancaq necə ola bilər ki, ağrı hər nə qədər az aktiv olursa-olsun, qavramayan substansiyada mövcud olsun? Qısası, bu barədə düşünün, sonra açıqca etiraf edin: işıq və rənglər, dadlar, səslər və s. – hamısı eyni dərəcədə ruhdakı passiv vəziyyətlər və ya duyğular deyilmi? Əslində siz onları *xarici obyektlər* adlandıra, onları sözdə istədiyiniz varlıq növü olaraq təqdim edə bilərsiniz. Ancaq öz fikirlərinizi təhlil edin və sonra mənə deyin, məsələ mən dediyim kimidir, ya yox?

***Çevirəni və Ön sözün müəllifi Anar Cəfərov***

**Berklinin Hilas və Filonus arasında üç dialoq əsərinin tərcüməsinə ön söz**

https://bakuresearchinstitute.org/az/berklinin-hilas-ve-filonus-arasinda-uc-dialoq-eserinin-tercumesine-on-soz/

***Birinci dialoqun ikinci hissəsi***

https://bakuresearchinstitute.org/az/hilas-v%c9%99-filonus-arasinda-uc-dialoq-2/

***Birinci dialoqun birinci hissəsi***

https://bakuresearchinstitute.org/az/hilas-v%c9%99-filonus-arasinda-uc-dialoq/